# Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı A.R.Rzayevə

Hörmətli Anar Rəsul oğlu!

Azərbaycan Yazıçılar Birliyinin 90 illiyi münasibətilə sizi və sizin yaradıcı kollektivi Rus Səfirliyi adından və şəxsən öz adımdan təbrik etmək istəyirəm.

Bu illər ərzində təşkilatınız müxtəlif nəsillərin oxucu məhəbbəti ilə izlənən böyük yol keçmişdir. Sizin birlikdəki istedadlı yazıçıların səmərəli fəaliyyəti ədəbiyyata və Azərbaycan xalqına yüksək ideallarla xidmətin parlaq nümunəsidir. Azərbaycanın çoxjanrlı nəsri, poeziyası və dramaturgiyası hər yerdə, o cümlədən Rusiyada yaxşı tanınır.

6 iyun 2024-cü ildə, Beynəlxalq rus dili günündə "MDB ölkələrinin müasir ədəbiyyatı" və "Müasir rus nəsri və poeziyası" kitablarının təqdimatına görə də sizə bir daha təşəkkür edirəm. Bu tədbir rus-Azərbaycan mədəniyyətlərarası dialoqun daha da möhkəmlənməsindən xəbər verir. Birgə layihələr icra edəcəyik ki, ədəbiyyat həvəskarları Rusiyanın və Azərbaycanın yazıçı və şairlərinin yaradıcılığına yaxından bələd olsunlar.

Sizə və rəhbərlik etdiyiniz kollektivə növbəti uğurlar, ilham, sağlamlıq və yeni-yeni yaradıcılıq nailiyyətləri arzu edirəm.

*Hörmətlə,*
*Rusiya Federasiyasının*
*Azərbaycandakı səfiri*

**M.YEVDOKİMOV**